Azərbaycan Respublikası
Mədəniyyət və Turizm Nazirliyi

İLHAM RƏHİMLİ

# AZƏRBAYCAN TEATR ENSİKLOPEDİYASI

ÜÇ CİLDDƏ

III
CİLD

Azərbaycan Milli
Kitabxanası

BAKI - 2017

*«Çəkmə, çəkə bilməzsən, bərkdir fələyin yayı» («Müsibəti-Fəxrəddin»), Nəcəf bəy Vəzirov. Həvəskar artistlər tamaşasının proqramı. 1915-ci il*




## NƏCƏF BƏY VƏZİROV

*(1868, Şuşa – 9.6.1928, Şamaxı, Çuxuryurd kəndi). Dramaturq, maarifçi.*

Azərbaycanın görkəmli maarifpərvər yazıçılarındandır. Milli peşəkar teatrımızın yaradıcılarından və ilk teatr tamaşasını həm hazırlayanlardan, həm də onun iştirakçılarından biridir. Mirzə Fətəli Axundzadədən sonra dramaturgiya ilə birinci məşğul olub və Azərbaycan ədəbiyyatında faciə janrının bünövrəsini qoyub.

Nəcəf bəy Fətəli bəy oğlu Vəzirov 1854-cü ilin aprelində Şuşa şəhərində doğulub. Babası Qarabağ mahalındakı Zümürxaç kəndinin kasıblamış bəylərindən olub. Atası Fətəli bəy cavan yaşlarından əmək qabiliyyətini itirib və kasıblayaraq ailəsini güc-bəlayla dolandırıb. Tədricən ailənin təsərrüfat işlərini anası Mina xanım öz üzərinə götürüb. Nəcəf bəy on iki yaşında mədrəsədə təhsil almağa başlayıb. Bir il sonra Şuşa şəhərinin mülkiyyə məktəbinə daxil olub. Müəlliminin kobud rəftarına görə təhsilini yarımçıq qoyub. Yaxın bir qohumu Nəcəf bəyə rus dilini öyrədib və o, cüzi yazı-pozu ilə mirzəlik edərək ailəsinə maddi yardım göstərməyə başlayıb. Oxumağa, elmə, maarifə böyük maraq göstərən Nəcəf bəy 1868-ci ildə yarımçıq təhsilini davam etdirmək məqsədilə Bakıya gəlib. Burada realni gimnaziyaya daxil olub. 1874-cü ilin iyun ayında gimnaziyanı gümüş medalla bitirib. Ali təhsil almaq üçün Peterburqa gedib və Peterburq Universitetinə qəbul edilib. İlk günlərdən şəhərin rütubətli havası ona düşməyib və səhhəti










*Nəcəf bəy Vəzirovun «Adı var, özü yox» məzhəkəsinin tamaşasının proqramı. Quruluşçu rejissor Hüseyn Ərəblinski. 1909-cu il*

ağırlaşan iyirmi yaşlı Nəcəf bəy batdaq qızdırmasına tutulub. Müalicə alandan sonra həkimlərin məsləhəti ilə Moskvaya gəlib. Burada da uğurla imtahan verərək Petrovski-Razumovski Kənd Təsərrüfatı Akademiyasının tələbəsi olub. Kasıbçılıq ucbatından uzun illər palaza bürünüb yatdığına görə ona «Dərviş» təxəllüsü verib-lər. Hətta yazıçı özü də bəzi ədəbi nümunələrində, o cümlədən 1893-cü ildə Şuşada kitab şəklində çap olunmuş «Daldan atılan daş topuğa dəyər» pyesinin titul vərəqində imzasını belə verib: «İnşayi Dərviş Nəcəf bəy Vəzirzadə».

Akademiyanı 1878-ci ildə qurtardıqdan sonra Peterburqdan Azərbaycana qayıdan Nəcəf bəy Vəzirov əvvəlcə Gəncə quberniyasının Tərtər nahiyəsində, Dilicanda, sonralar isə müxtəlif bölgələrdə meşəbəyi işləyib. 1895-ci ildə Bakıya köçüb və burada vəkilliklə məşğul olub. Eyni zamanda müxtəlif mətbuat səhifələrində publisistik yazılarla çıxış edib. Onun müxtəlif mövzulu məqalələri 1905 – 1918-ci illərdə «Həyat», «İrşad», «Təzə həyat», «Tərəqqi», «Yeni İrşad», «Sədayi-həqq», «El həyatı», «Açıq söz», «Mirat» qəzetlərində çap olunub. Bakının məşhur mədəni-maarif cəmiyyətlərindən olan «Səfa» 1913-cü il noyabr ayının 15-də Tağıyev teatrında (Şəhər teatrında) Nəcəf bəy Vəzirovun ədəbi fəaliyyətinin 40 illiyinin yubiley təntənəsini keçirib. Yubiley mərasiminin bədii hissəsində Cahangir Zeynalovun rejissorluğu ilə ədibin «Hacı Qəmbər» komediyası oynanılıb. Nəcəf bəy Vəzirov Şamaxının Çuxuryurd kəndində ürək xəstəliyindən vəfat edib. Məzarı Bakıda Fəxri xiyabandadır.

Nəsr və publisistika ilə məşğul olsa da, ilk növbədə, dramaturq kimi ədəbiyyatımızın klassikləri sırasına daxildir. Onun yaradıcılığını üç mərhələyə bölmək olar. Birinci mərhələ: 1873 – 1900-cu illər; ikinci mərhələ: 1902 – 1913-cü illər; üçüncü mərhələ: 1913 – 1921-ci illər.

Dramaturji yaradıcılığa Bakıda olarkən başlayıb. 1873-cü il mart ayının 10-da Bakı realni gimnaziyasının şagirdləri ilə birlikdə Mirzə Fətəli Axundzadənin «Lənkəran xanının vəziri» komediyasının tamaşasında oynayıb. Bundan təsirlənərək elə həmin il ilk birpərdəli «Əti sənin, sümüyü mənim» (1873) və «Qaragünlü» (1874) məzhəkələrini yazıb. Lakin həmin əsərlər itib. Dramaturq bu məzhəkələrdən birincisinin süjeti və

mövzusu barədə vaxtilə «Əkinçi» qəzetində yazıb. Əldə olmayan ikinci məzhəkəsi barədə isə müfəssəl tərcümeyi-halında bəhs edib.

Moskvanın teatr mühiti, klassik rus və dünya dramaturqlarının yaradıcılıqları ilə yaxından tanış olan Vəzirov ədəbiyyata daha ciddi meyil göstərib. Tələbə vaxtı «Ev tərbiyəsinin bir şəkli» (1875), «Gəmi lövbərsiz olmaz» (1876) komediyalarını yazıb. Meşəbəyi işləyə-işləyə «Daldan atılan daş topuğa dəyər» (1890), «Sonrakı peşmançılıq fayda verməz» (1890) , «Adı var, özü yox» (1891), «Yağışdan çıxdıq, yağmura düşdük» («Hacı Qəmbər». 1895) komediyalarını, «Müsibəti-Fəxrəddin» (1896) faciəsini və «Pəhlivanani-zəmanə» («Zəmanə pəhlivanları». 1900) dramını tamamlayıb.

«Müsibəti-Fəxrəddin» ilk Azərbaycan faciələrindəndir. «Pəhlivanani-zəmanə» isə milli burjuaziyanın həyatından, Bakı neftindən bəhs edən, tacir-burjua obrazı təsvir olunan birinci dram əsəridir. Yaradıcılığının ikinci dövrünə «Ağa Kərim xan Ərdəbili» məzhəkəsi ilə 1902-ci ildə başlayıb. Bu məzhəkə, əslində fransız dramaturqu Jan Batist Morlyerin məşhur «Xəsis» komediyasından iqtibas edilib. Lakin Nəcəf bəy əsərə güclü milli ruh verib, koloritli və tipik bədii obrazlar yarada bilib. Məhz buna görə də həmin komediya dramaturgiyamızda daha çox və əsasən, milli sənət nümunəsi kimi şöhrətlənib. Dramaturqun yaradıcılığının ikinci dövrü kimi səciyyələnən mərhələdə Nəcəf bəy Vəzirov «Vay şələküm, məələküm» (1909), «Nə əkərsən, onu biçərsən» (1911), «Keçmişdə qaçaqlar» (1912) adlı səhnə əsərlərini yazıb. Fransız ədəbiyyatından götürülmüş «Vəkil Patelen» vodevilini «Dələduz» adı ilə,



*«Hacı Qəmbər», Nəcəf bəy Vəzirov. AMDT, 1955-ci il. Yetər – Barat Şəkinskaya, Hacı Qəmbər – Məmmədəli Vəlixanlı*

məzhəkə janrında iqtibas və təbdil edib. Həmçinin müxtəlif teatr truppalarında coşqunluqla rejissorluq fəaliyyəti göstərib. Bəzən həvəskar aktyor kimi kiçik həcmli rollar da oynayıb. Ədibin yaradıcılığının üçüncü dövrü də məhsuldar sayıla bilər. Dramaturq ömrünün ağsaqqal çağında və yaradıcılığının müdriklik mərhələsində «Pul düşkünü Hacı Fərəc» (1912), «Keçmişdə qaçaqlar» (1912), «Nə əkərsən, onu biçərsən» (1914), «Təzə əsrin ibtidası» (1920) pyeslərini işləyib. «Mehdi xan Tabasarani» pyesi tamamlanmayıb, yarımçıq qalıb.